# İstedadlı şair, unudulmaz şəxsiyyət

**Ömrünün 25 ildən çoxunu yerli mətbuatın tərəqqisinə, jurnalistika sahəsinin inkişaf etdirməsinə, həm də dövlətçiliyin təbliğ edərək möhkəmləndirilməsinə həsr edən istedadlı şair- publisist Şəkər Aslanın iş fəaliyyəti, şüurlu həyatı bu günki müstəqil Azərbaycan jurnalistikası üçün əsl məktəbdir.**

Şəkər Mirzə oğlu Aslanov (Şəkər Aslan) 1935-ci ildə Lənkəran rayonunun Boladi kəndində dünyaya göz açmışdır. Kənd orta məktəbini bitirdikdən sonra o, Port-İliç (indiki Liman) və Lənkəran şəhər mədəniyyət evlərində əmək fəaliyyətinə başlamışdır. Şəkər müəllim hələ orta məktəbdə oxuyarkən bədii yaradıcılığa başlamışdır. İlk şeiri 1953-cü ildə "Sosialist subtropikası" rayon qəzetində dərc olunmuşdur.

### *Bədii yaradıcılıqda*

**daha püxləşən Şəkər Aslanın şeirləri sonralar " Ədəbiyyat və İncəsənət", "Sovet kəndi", "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri" qəzetlərində "Ulduz", "Azərbaycan qadın", "Kənd həyatı" eləcə də digər jurnallarda çap olunmuşdur. İstedadını və bacarığını nəzərə alaraq gənc Şəkəri rayon qəzetində işə götürürlər. Şəkər müəllim "Leninçi (indiki Lənkəran)" qəzetində əvvəl müxbir, sonralar ədəbi işçi və şöbə müdiri işlənmişdir. Jurnalistikaya ürəkdən bağlanan Şəkər Aslan 1970-ci ildən 1992-ci ilədək rayon qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır.**

O, vaxtlar orta məktəbdə oxuyurdum. Rayon qəzetində məndə ictimai müxbir kimi müxtəlif məzmunlu yazılarımla çıxış edirdim. Redaksiyaya tez-tez gedib yazılarımı təqdim edir, təcrübəli jurnalistlərdən məsləhət alırdım. Həmin illərdə (1960-66-cı illər) redaksiyada istedadlı qələm sahibləri çalışırdı. Vaqif Hüseynov, Yaşar Rzayev, Şükufə Qasımova, Hüseynağa Qəniyev, Əyyub Rzayev, Həzi Əliyev, Mirhafiz, Bahadır, Camal Yusifzadə, Ramiz Hüseynov kimi yaradıcı kollektiv fəaliyyət göstərirdi.

### *Yaxşı yadımdadır,*

**həmin vaxtlarda Şəkər müəllimin təşəbbüsü ilə rayon qəzetinin nəzdində ədəbi birlik yaradılmışdı.**

Birliyin yığıncağı hər həftənin bazar günləri keçirilirdi. Yığıncaqda gənc yazarlar şeir, hekayələrini oxuyur, müzakirə edirdilər. Ədəbi məclisdə bəyənilən şeir və hekayələr qəzetin şənbə nömrəsindəki ədəbiyyat səhifəsində çap olunurdu.

Bu gün gözəl şeir və hekayə eləcə də digər bədii əsərləri ilə tanınan bir çox kitabların müəllifi olan yazarların çoxu vaxtı ilə Şəkər müəllimin yaratdığı ədəbi birliyin yetirmələridir. Buna görə onlar Şəkər Aslanı həmişə xatırlayır, haqqında xoş və səmimi sözlər danışırlar. Şəkər Aslan Ali təhsilini Moskvadakı M.Qorki adına ədəbiyyat inistitunda almşdır. Şairin "Bahar yağışı" ilk kitabı 1964-cü ildə işıq üzü görmüşdü. Sonralar 40-dan artq kitabları çap edilmiş, bir neçə kitabı isə rus dilinə tərcümə edilmişdir. Şairin N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı səhnəsində "Sən kimsən ata" və "Bir tərəfli hərəkət" pyesləri tamaşaya qoyulmuşdur.

Qeyd edək ki, 1931-ci ildən fəaliyyət göstərən rayon qəzetinin 84 ilinin 25 ili Şəkər Aslanın adı və fəaliyyəti ilə bağlıdır. Bu gün qəzetdə çalışanların bir çoxu Şəkər müəllimlə bir kollektivdə işləmişlər. Onlar Şəkər Aslanı mehriban, qayğıkeş insan olmaqla gözəl şəxsiyyət kimi həmişə xatırlayırlar.

Şəkər Aslanın 1993-cü ildə təsis etdiyi və baş redaktor olduğu "Söz müstəqil ədəbi-publisislik jurnalı bu gündə jurnalist Sevda xanım Əlibəylinin redaktorluğu ilə nəşr olunur. Şəkər Aslanın 1968-ci ildən SSRİ yazıçılar və jurnalistlər İttifaqının üzvi olmaqla "Qızıl Qələm" mükafatı laureatı idi. O, Azərbaycan Respublikası Ali sovetinin fəxri fərmanı, "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif edilmiş, dəfələrlə şəhər və rayon sovetlərinə deputat seçil-



mişdir.

### *Şair Şəkər Aslan*

**1994-cü ilin iyul ayından ömrünün sonunadək Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölgəsinin məsul katibi vəzifəsində çalışmışdır. Şairin əmək və müharibə qəhrəmanlarına yazdığı şeirlərə mahnılar bəstələmiş və bu gündə həmin mahnılar tanınmış müğənnilər tərəfindən ifa edilir. Şəkər Aslan sağlığında yaradıcıllığına həsr edilmiş televiziya verilişində hazırda fonda saxlanılır.Lənkəran şəhərinin ən böyük küçələrindən biri Şəkər Aslanın adını daşıyır. Şəkər müəllim istedadlı şair olmaqla gözəl və qayğıkeş ailə başçısı idi. O, sağlığında övladlarınada Ali təhsil vermiş, atalıq borcunu yerinə yetirmişdir.**

Oğlu Qaya Kiyev Dövlət Universitetini, eləcə də aspiranturanı bitirmişdir. Qızı Aysel Ali təhsilli həkim, Aysel Lənkəran Dövlət Universitetini bitirmiş, ixtisası üzrə işləyir. Şəkər müəllim ölümündən qabaq sevdiyi doğma Boladii kəndinə daha tez-tez baş çəkir, kənd ağsaqqalları ilə görüşüb hal-əhval tuturdu. Elə bil ürəyinə danmışdı həyatdan vaxtsız köçməsi.

Şair yazır:

**Yer-yığışa başlamışam,**
**Hər anın bir hökmü var.**
**Mən son qışaa başlamışaam,**
**Keçib gedibdi son bahar.**

İstedadlı şair Şəkər Aslan 1995-ci ilin iyun ayında ömrünün 60-cı yazında dünyasını dəyişdi.

O, Boladi kəndin Seyboda məhəlləsindəki qəbristanlıqda əbədiyyata qovuşub. Şəkər Aslan ölməz və unudulmaz şəxsiyyət kimi onu tanıyanların və şeirlərini sevə-sevə oxuyanların yaddaşına əbədi həkk olub. Şairlər ölmürlər, onlar gözəl şeir əsərləri ilə çoxsaylı oxucuların qəlbində zaman-zaman yaşayırlar. Şəkər Aslanda belə yaradıcı ziyalılarımızdan idi.

Bu il Şəkər Aslanın anadan olmasının 85 illiyidir.

**Inanırıq ki, unudulmaz şairin yubleyidə şeirləri kimi maraqlı və yadda qalan olacaq.**

**Azad Zülaloğlu**
**"Qızıl Qələm"**
**media mükafatı laureatı**